

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 162 (21.572)

*31 avqust 2016-cı il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 30-da Qaz İxrac edən Ölkələrin Forumunun baş katibi Seyid Məhəmməd Hüseyn Adelini qəbul edib.

Seyid Məhəmməd Hüseyn Adeli bundan əvvəl Prezident İlham Əliyev ilə keçirdiyi görüşü xatırlayaraq Azərbaycanın Qaz İxrac edən Ölkələrin Forumunda müşahidəçi üzv olmasını məmnunluqla qeyd edib. Qonaq məlumat verib ki, gələn il Boliviyada Qaz İxrac edən Ölkələrin Forumunun sammiti keçiriləcək və Azərbaycan bu tədbirə dəvətlidir.

Dövlətimizin başçısı son illərdə Azərbaycanın energetika sahəsində, o cümlədən qaz yataqlarının işlənilməsində önəmli hadisələrin baş verdiyini vurğulayıb. Bildirilib ki, "Şahdəniz-2" layihəsində işlər uğurla gedir və qarşıdakı illərdə Azərbaycanda qaz hasilatının əhəmiyyətli dərəcədə artacağı gözlənilir. Prezident İlham Əliyev qeyd edib ki, yaxın gələcəkdə "Abşeron" layihəsi üzrə qaz istehsalının başlanması gözlənilir. Beləliklə, Azərbaycan gələcəkdə qaz ixracı imkanlarını əhəmiyyətli dərəcədə genişləndirəcək.

Söhbət zamanı qaz və energetika bazarlarındakı tendensiyalar, Azərbaycanın Qaz İxrac edən Ölkələrin Forumu ilə əməkdaşlığı və bu imkanlardan istifadə etməklə qaz ixracının səmərəliliyinin artırılması ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.



## İnkişafın Naxçıvan modeli müasir regionşünaslığın tədqiqat obyektidir



***Bəzən dünyanın xəritəsindəki sərhədlərə baxaraq çoxlu suallar haqqında düşünürsən. Görəsən, tarixboyu dövlətlər və ayrı-ayrı regionlar yaranarkən gedən mürəkkəb proseslər xalqların taleyinə öz təsirini necə göstərmişdir? Yaxud bunlar belə olmasaydı, indi bu qırmızı xətlər haradan keçərdi? Amma, hər halda, dünyada bir region haqqında danışarkən ərazinin havası, suyu, canlı təbiəti, təbii ehtiyatları ilə yanaşı, çox vaxt buradakı inkişafın mərhələləri, yerli əhalinin tarixi məşğuliyyət növləri, milli dəyərlərinə bağlılığı və dövlətçiliklə bağlı məsələlərin ön plana çəkildiyi suallarla rastlaşırsan. Deməli, okeanlar, dənizlər, iri çaylar, dağ silsilələri və digər təbii amillər planeti ayrı-ayrı regionlara böldüyü kimi, tarixi proseslər və müasir iqtisadi-mədəni inkişafın səviyyəsi də region anlayışına yeni baxışlar formalaşdırır.***

Qeyd etdiyimiz kimi, region məfhumu genişdir və hər regionun coğrafiyasına görə özünəməxsus tədqiqat problemləri vardır. Məsələn, çoxlu sayda ölkəni özündə birləşdirən Avropa regionu, qarmaqarışıq Yaxın Şərq regionu və ya cəmisi üç ölkənin təmsil olunduğu Cənubi Qafqaz regionu və sair. Vahid dövlət tərkibindəki regionların tarixi keçmişinin, coğrafiyasının, təbii, iqlim və mineral ehtiyatlarının, turizm və rekreasiya potensialının, yerli əhalisinin məşğuliyyətinin, dilləhcə, məişət, mətbəx, hətta geyim fərqlərinin, iqtisadi inkişaf səviyyəsinin, eləcə də ona təsir edən amillərin öyrənilməsi müasir regionşünaslar qarşısında çoxlu sayda elmi problemlər qoyur. Cəmiyyətin inkişafının tələblərinə uyğun olaraq, bu məsələlərin hər birinin öyrənilib üzə çıxarılması isə, ümumilikdə, elmə və dünya mədəniyyətinə qazandırılan töhfələr olmaqla yanaşı, regional inkişafa da elmi prizmadan yanaşmanın metodoloji əsaslarından birini təşkil edir.

Son dövrlərdə dünyanın aparıcı mətbuat orqanlarının səhifələrindən tez-tez oxuduğumuz "Azərbaycan Cənubi Qafqaz regionunun lider dövlətidir. Region iqtisadiyyatının 85 faizi Azərbaycanın payına düşür. Bu regionun ən güclü ordusu Azərbaycandadır. Azərbaycan Respublikası təkcə yaxın regionun deyil, Avropanın da enerji təhlükəsizliyində mühüm rol oynayır" kimi ifadələri bir daha xatırladaraq "region" haqqındakı fikirlərimizə davam edək. Belə bir qlobal miqyasda bu kimi fikirlər, əlbəttə ki, hər bir ölkənin müstəqil siyasət aparmaqla və qarşılıqlı əməkdaşlıq şəraitində əldə etdiyi bir region təsəvvürüdür. Bizimlə eyni regionu bölüşən təcavüzkar Ermənistan dövləti, bütövlükdə, Cənubi Qafqaz regionu haqqında risk, etibarsızlıq və yoxsulluq imici yaratdığı halda, Azərbaycan Respublikasının təkcə investisiya cazibədarlığı dünya qarşısında hər cür həqiqəti ortaya qoyur. Azərbaycanda həyata keçirilən iqtisadi siyasət, insan amilinə və onun regionlarının tarazlı inkişafına göstərilən diqqət də ölkəmizi öz regionunda haqqı olduğu mərtəbəyə yüksəltmişdir.

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası isə regional tədqiqatlar baxımından özünəməxsusluğu ilə seçilir. Tarixən bu bölgə təkcə Azərbaycanda deyil, bütün dünyada tanınmış elm, sənət adamları, memarları, yazıçıları, şairləri, rəssamları, sərkərdələri və dövlət xadimləri ilə məşhurlaşmışdır. Naxçıvan tarixinin tədqiqatçıları burada baş vermiş hadisələrin təkcə Azərbaycanın deyil, yaxın region və hətta bütün dünya üçün əhəmiyyətli olduğunu artıq sübut etmişlər. Bəşər mədəniyyətinin, sivilizasiyanın doğulduğu yer kimi Naxçıvanın adı ən qədim mənbələrdə çəkilir. Hələ erkən orta əsrlərdən etibarən Şərqlə Qərb arasında körpü rolunu oynamağa başlayan Naxçıvan mədəniyyətlərarası dialoqa verdiyi töhfələrlə indi də dünyanın diqqətindədir. Naxçıvana dünyanın dörd bir tərəfindən gələn səyyahlar bir anda özlərini sanki "Duaların Allaha çatdığı yer"də, "Əfsanələr diyarı"nda görmüşlər. Naxçıvandan dünyaya Antik dövrün ən strateji ixracat məhsulu olmuş duz ixrac edilərmiş. Hələ "xarici ticarət" anlayışının olmadığı bir dövrdə bu, Naxçıvanda yaranmış mədəniyyət nümunəsinin – etibarlı iqtisadi əməkdaşlığın çox güclü sübutu idi.

Tarixi ədalətsizlik nəticəsində Naxçıvanın Azərbaycandan ayrı salınması və daha sonra isə muxtariyyət statusu qazanması ona Azərbaycanın bir regionu kimi yanaşmanı daha da dərinləşdirmişdir. Təqribən, son yüz il ərzində gedən proseslər, keçmiş sovet dövründə və müstəqillik illərində Naxçıvanla bağlı baş verən hadisələr bu diyarın Azərbaycanın diqqət mərkəzində olan regionu olduğunu bir daha təsdiqləyir. Avropa və Asiya dəhlizindəki əhəmiyyəti ilə hələ çar dövründə önə çıxan, mühüm nəqliyyat və gömrük infrastrukturuna malik olan Naxçıvanın ozamankı iqtisadi inkişafı, əhalisinin həyat səviyyəsi buna cavab vermirdi. Eyni vəziyyət sovet dövründə də davam etmiş, keçən əsrin 70-ci illərinə qədər Naxçıvan sanki dünyanın bir küncünə qısılmış torpaq parçası kimi unudulmuş, yoxsul ucqar bir yeri xatırladırdı. Yalnız bu torpağın yetirməsi, xalqımızın dahi oğlu Heydər Əliyevin hakimiyyətə gəlişi ilə Naxçıvana xüsusi diqqət yetirilməyə başlanmışdır. Sənaye müəssisələri istifadəyə verilmiş, əhalinin rahat yaşayışı üçün normal şərait yaradılmışdır. Qısa müddətdə Naxçıvanda görülmüş işlər burada yeni bir mərhələnin başlanğıcını qoymuşdur. Bu dövrdə Naxçıvan üçün yaradılmış hər nə vardısa, gələcəkdə bu diyarı gözləyən daha çətin günlərin dayağı olacaqdı. Həmin günlər – ötən əsrin 90-cı illərinin əvvəlləri isə regionşünas alimlərin qeyd dəftərlərində təkcə Naxçıvanın deyil, bütün Azərbaycanın ən yeni tarixinin yazıldığı ilk səhifələr idi.

O vaxtdan 20 ildən çox bir dövr keçməkdədir. Əslində, qısa olsa da, bu, bir insanın formalaşması üçün kifayət qədər uzun bir dövrdür. Artıq universiteti bitirməkdə olan naxçıvanlı gənc bir vaxtlar həmin dövrləri ata-babasının xatirələrindən eşitsə də, indi oxuduğu elmi kitablar, qəzet və jurnallar, izlədiyi sənədli filmlər doğulub boya-başa çatdığı Naxçıvan haqqında ona hər gün yeni informasiyalar verir. Bunlar isə beşminillik şəhər mədəniyyətinə malik Naxçıvanın Azərbaycan tarixindəki tutduğu yer, müstəqillik dövründə bu torpağın sakinlərinin keçdiyi qəhrəmanlıq yolu, bitməz-tükənməz quruculuq həvəsi, hər cür yoxluğa rəğmən elmə, mədəniyyətə verilən diqqət və taleyin ən çətin sınaq anında daha da möhkəmlənən yurd sevgisi haqqında ən yüksək səviyyələrdə aparılan regional tədqiqatlarda sübuta yetirilmiş tutarlı faktlardır.

Deyirlər ki, tarix onu yazan insanların ayaq izləridir. Regional məsələlər çərçivəsində muxtar respublikamızın, ölkəmizin və xarici ölkə alimlərinin çoxlu dəyərli tədqiqatları işığında son onilliklərin salnaməsini vərəqlədikdə görürük ki, Naxçıvanın tarixi, onun mədəniyyəti, iqtisadi inkişaf və idarəçilik modeli hələ neçə on illər tədqiqatçılara mövzular verəcəkdir.

✍ **Əli CABBAROV**

## Ekologiya və Təbii Sərvətlər Nazirliyində payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələr müzakirə edilib

***Bu münasibətlə keçirilən müşavirəni Naxçıvan Muxtar Respublikası ekologiya və təbii sərvətlər naziri Hafiz Yaqubov açaraq məruzə ilə çıxış edib.***



Bildirilib ki, avqustun 26-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2016-2017-ci ilin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə bağlı keçirilən müşavirədə Ekologiya və Təbii Sərvətlər Nazirliyinə də bir sıra tapşırıqlar verilib.

Qeyd olunub ki, nazirliyin İstehsalın təşkili, planlaşdırılması və geologiya şöbəsi, Meşə Təsərrüfatı İdarəsi, Meşəsalma və Meşə Tingçiliyi Müəssisəsi tərəfindən 2016-cı ilin payız mövsümündə həyata keçiriləcək əkin və əkin-bərpa, yaşıllaşdırma və yeni meyvə bağlarının salınması işlərinin mütəşəkkil keçirilməsi üçün sentyabr və oktyabr aylarında əkin aparılacaq ərazilərin sxem-planları hazırlanmalı, ting ehtiyatı yaradılmalı, torpaq hazırlığı işləri aparılmalıdır. Xüsusilə dağlıq və meşə fondu ərazilərində toxumla əkin işlərinin aparılmasına üstünlük veriləcəkdir. Dövlət meşə fondu ərazilərində qurumuş ağacların təmizlənməsi və hərbi hissələrə verilməsi işi davam etdiriləcəkdir. Ətraf mühit və təbii sərvətlərdən istifadəyə dövlət nəzarəti şöbəsi, Xüsusi mühafizə olunan təbiət əraziləri şöbəsi, xüsusi mühafizə statuslu idarələr və balıq mühafizə stansiyası tərəfindən brakonyerliyə, qanunsuz ov edilməsinə qarşı ciddi mübarizə aparılacaq, yoxlama-reydlər, maarifləndirici tədbirlər davam etdiriləcəkdir. Bitki və heyvanat aləminin qorunmasına diqqət daha da artırılacaqdır.

Vurğulanıb ki, muxtar respublika ərazisində qış mövsümü sərt şaxtalarla müşayiət olunur. Bu da iqlim şəraiti haqqında vaxtında və dəqiq məlumatlara tələbatı artırır. Bu sahə ilə əlaqədar dövlət orqanlarının, vətəndaşların hidrometeoroloji, aqrometeoroloji məlumatlarla təmin edilməsi üçün nazirliyin Bioloji mühit və təbii sərvətlərdən istifadənin təşkili şöbəsi və Hidrometeorologiya İdarəsi tərəfindən zəruri tədbirlər həyata keçirilməli, texniki avadanlıqlarla təchizat yaxşılaşdırılmalıdır.

Qış mövsümündə ərazilərin qarla örtülməsi heyvanat aləminin qida ehtiyatının azalmasına səbəb olur. Ona görə də hər il xüsusi mühafizə olunan təbiət ərazilərində və digər təbiət ərazilərində biotexniki tədbirlər həyata keçirilir, həmin ərazilərə qida məhsulları – buğda, arpa, qaba yem, tərəvəz məhsulları, daşduz və digər qidalar paylanır. Bu ehtiyatların bir qismi nazirliyin təsərrüfat ərazilərindən toplanır və aidiyyəti idarələr tərəfindən tədarük edilir. Nazirliyin Xüsusi mühafizə olunan təbiət əraziləri şöbəsi və aidiyyəti xüsusi mühafizə statuslu idarələr vaxtında qida ehtiyatının yaradılması üçün tədbirlər görəcək, daşduz ehtiyatı yaradılacaqdır. Bu tədbirlərin yeni salınmış yaşıllıq sahələrində keçirilməsi də diqqətdə saxlanılacaqdır.

Nazirliyin tabeli müəssisələrinin rəhbərləri aid inzibati binalarda, meteoroloji stansiyalarda, gözətçi məntəqələrində qışa hazırlıqla bağlı zəruri tədbirləri həyata keçirəcəklər. Xüsusilə elektrik enerjisi və təbii qazdan istifadə edən müəssisələr israfçılığa yol verməməli, təhlükəsizlik tədbirlərinə diqqət göstərməlidirlər. Mühafizə işçilərinin isti geyimlərlə və digər zəruri avadanlıqlarla təmin edilməsi üçün tədbirlər görüləcəkdir.

Qeyd olunub ki, 2016-2017-ci ilin payız-qış mövsümünə hazırlıqla əlaqədar keçirilən müşavirənin qarşıya qoyduğu vəzifələr rəhbərliyə alınmaqla nazirlik hazırlıq işlərinin vaxtında və yüksək səviyyədə icra olunması üçün bütün imkanlarını səfərbər edərək səylə çalışacaqdır.

Sonra məruzə ətrafında çıxışlar olub.

✍ **Səbuhi HƏSƏNOV**

# İnkişaf və müasirləşmə yeni mərhələyə qədəm qoyub

## Cari ilin yeddi ayının nəticələri daha böyük uğurlardan xəbər verir



***Şərur rayonunda aparılan tikinti-abadlıq və quruculuq işlərinin, həyata keçirilən müxtəlif istiqamətli tədbirlərin başa çatdırılması aylarla, həftələrlə, günlərlə yox, az qala saatlarla ölçülür. Bütün bu inkişaf, tərəqqi ümummilli liderimiz Heydər Əliyev siyasətinin uğurla davam etdirilməsinin nəticəsidir.***

1969-1982-ci illərdə – ulu öndərin Azərbaycana birinci rəhbərliyi dövründə respublikamızın bütün bölgələri kimi, Şərur da sürətlə inkişaf edən rayonlar sırasında olmuşdu. O dövrdə Arpaçay dəryaçasının tikilib istifadəyə verilməsi ilə Şərur düzünə, Kəngərli çöllərinə, Sədərək torpaqlarına yeni həyat bəxş edildi. Rayon Azərbaycan miqyasında ən böyük üzüm və bunun müqabilində şərab istehsal edən bölgələrdən birinə çevrildi. Əhalinin gün-güzəranı, yaşayış tərzi də irəliyə doğru xeyli dəyişdi. Kəndlərdəki palçıq, uçuq daxmaların yerində mişardaşından gözəl və yaraşıqlı, ikimərtəbəli fərdi evlər tikildi. Dövlət səviyyəsində yaşayış məskənlərinin, xüsusən də kəndlərin sosial-iqtisadi problemlərinin həllinə xüsusi diqqət yetirildi. Kəndlərin əksəriyyətində müasirtipli, hər cür şəraiti olan ikiüçmərtəbəli təhsil ocaqları ucaldıldı, səhiyyə, mədəniyyət, ticarət, iaşə, məişət xidməti müəssisələri inşa olundu. İstehsalatda fərqlənən neçə-neçə əmək adamı yüksək dövlət mükafatlarına, fəxri adlara layiq görüldü.

Lakin ötən əsrin 90-cı illərindəki hərc-mərclik, xaos, özbaşınalıq, respublikaya təcrübəsiz, səriştəsiz adamların rəhbərlik etməsi nəticəsində digər bölgələrimiz kimi, Şərur rayonu da acınacaqlı günlərini yaşadı. Müttəfiq respublikalar arasında iqtisadi əlaqələrin kəsilməsi nəticəsində əksər müəssisələr fəaliyyətini dayandırdı, adamlar işsiz qaldı.

1993-cü ilin yayında ulu öndər respublikada hakimiyyətə qayıtdıqdan sonra Onun uzaqgörən siyasəti, gərgin əməyi sayəsində həyat addım-addım məcraya düşməyə başladı. Xüsusilə 1995-ci ildən, yəni ölkədə ictimai-siyasi sabitlik tam bərpa olunandan sonra bu rayonun da sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında yeni inkişaf dövrü başlandı, muxtar respublika rəhbərinin tövsiyələrinə uyğun olaraq insan amili diqqət mərkəzinə çəkildi.

Beləcə, respublikamızın hər yerində olduğu kimi, Şərur rayonunda da çətinliklər artıq arxada qalıb. Bunun əsas səbəbi ondan ibarətdir ki, qarşıya qoyulan məqsədə çatmaq üçün bütün qüvvələr səfərbər edilib, iri infrastruktur layihələri hazırlanıb və reallaşdırılıb. Elə buradaca kiçik bir statistikaya ehtiyac var: 2016-cı ilin yanvar-iyul aylarında rayonda iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala yönəldilən vəsait bundan əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 0,6 faiz, tikinti təşkilatlarının yerinə yetirdikləri işin həcmi 1,9 faiz artıb. Yeddi ayda ötən ilin müvafiq dövrü ilə müqayisədə sənaye məhsulu istehsalı 2,9 faiz, kənd təsərrüfatının ümumi məhsulu 5,3 faiz, informasiya və rabitə xidmətləri 2,4 faiz artıb, nəqliyyat sektorunda yük və sərnişin daşınmasından, bütövlükdə, 2 milyon 484 min manat gəlir əldə edilib. Əvvəlki ilin eyni dövrü ilə müqayisədə pərakəndə əmtəə dövriyyəsinin həcmi 2,4 faiz çoxalıb. İşçilərin orta aylıq əməkhaqqı 392,6 manata çatıb ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 4,4 faiz çoxdur. Cari ilin birinci yarısında 368 nəfər daimi işlə təmin olunub.

Bu gün Şərur nəhəng inşaat meydançasını xatırladır. Rayon mərkəzinin prospekt və küçələrində, kəndlərdə təmir-tikinti, abadlıq və yenidənqurma işləri geniş vüsət alıb. Aparılan abadlıq və quruculuq işləri yüksək zövqlə görülür, keyfiyyətə, müasirliyə xüsusi fikir verilir. Sözügedən dövrdə Oğlanqalada kənd mərkəzi, 576 yerlik tam orta məktəb, həkim ambulatoriyası, xidmət mərkəzi tikilib, Xanlıqlar kəndində "İmamzadə" tarixi abidəsi bərpa olunub, Aşağı Yaycı kəndində və Mahmudkənddə idman meydançaları istifadəyə verilib. Hazırda Arbatan, Çəmənli və Arpaçay kəndlərində geniş quruculuq tədbirləri görülür, Şərur şəhərində 2 nömrəli tam orta məktəb binasının, Fizika-Riyaziyyat Təmayüllü Lisey üçün yataqxana korpusunun, içməli su və kanalizasiya şəbəkəsinin, "N" hərbi hissə üçün yeni obyektlərin tikintisi davam etdirilir.

Əhalinin həyat səviyyəsinin yaxşılaşması fərdi yaşayış evlərinin tikintisinə də müsbət təsir edir. Cari ilin birinci yarısında rayonda 12 min 430 kvadratmetr fərdi yaşayış sahəsi istifadəyə verilib ki, bu da ötən ilin eyni dövründəkindən 0,7 faiz çoxdur.

Təhsil sahəsinin uğurları da qənaətləndiricidir. Rayonda aparılan yüksək səviyyəli tədrisin nəticəsidir ki, ötən dərs ilində orta məktəbləri bitirmiş 674 məzunun 3-ü qızıl, 2-si gümüş medala layiq görülüb. Məzunların 512 nəfəri ali məktəblərə qəbul imtahanlarında iştirak edib, onlardan 288 nəfəri uğurlu nəticə göstərib. Abituriyentlərdən 52 nəfərinin bal göstəricisi 500-700, o cümlədən 18 nəfərinin topladığı bal 600-700 arası olub.

Ali Məclis Sədrinin 8 fevral 2016-cı il tarixdə imzaladığı "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı" əhalinin meyvə və tərəvəz məhsullarına olan tələbatının yerli istehsal hesabına təmin edilməsinə geniş imkanlar açıb. Bunun nəticəsidir ki, cari ilin yeddi ayında istehsal olunan meyvə və tərəvəz məhsullarının həcmi müvafiq olaraq 1,2 və 1,3 faiz artıb. Rayon ərazisində 13 hektardan artıq yeni meyvə bağları salınıb, mövcud bağlarda bərpa işləri aparılıb.

Şərurlular işgüzardır, istiqanlıdır. Böyük əksəriyyət zəhmətə qatlaşan, halallığa tapınandır. Bəlkə də, elə buna görədir ki, Şərur çölləri, bağları bar-bərəkət bağlayır. Elin varı getdikcə çoxalır. Bu hesaba həyat, gün-güzəran ilbəil yaxşılaşır.

Şərurun iqtisadiyyatında kənd təsərrüfatı aparıcı sahədir. 2016-cı ilin məhsulu üçün ötən ilin payızında və bu ilin yazında 17 min 115 hektar sahədə əkin aparılıb. Bu il 7 min 637 hektar taxıl sahəsinin məhsulu biçilib, 24 min 117 ton məhsul toplanılıb. Rayonda az zəhmətlə daha çox gəlir gətirən qarğıdalı istehsalına maraq ildən-ilə artır. Yazda 1120 hektar sahədə qarğıdalı əkini aparılıb. Bu da ötən ildəkindən 624 hektar çoxdur. 760 hektar kartof sahəsindən istehsal olunan 9 min tonadək kartofun çox hissəsi soyuducu anbarlara yığılıb. Sahələrdə meyvə-tərəvəz məhsulları hələ tam yığılıb qurtarmayıb və bu iş davam etdirilir.

Cari ilin yeddi ayında rayonda ət, süd, yun və yumurta istehsalında da keçən ilin müvafiq dövrünə nisbətən artım müşahidə olunub.

Əlbəttə, cari ilin yeddi ayında Şərurda görülmüş bütün işləri bir qəzet məqaləsi ilə tam şəkildə, ətraflı təsvir və təhlil etmək imkan xaricindədir. Sadəcə olaraq, bütün bunları ümumiləşmiş şəkildə yeddi ayın uğurlu yekunu, növbəti ayların isə sağlam başlanğıcı adlandırmaq olar.

***Bəli, Şərurda həyat qaynayır. Çəkilən zəhmət, axıdılan alın təri öz fərəhli bəhrələrini verir, daş üstə qoyulan hər daş gözoxşayan binaya çevrilir, əkilən hər ağac, hər gül kolu, abadlaşan hər küçə, yenidən qurulan hər park Şərurun gözəlliyinə yeni naxışlar vurur. Görülən işlərin miqyası və dinamizmi, adamların yüksək əhval-ruhiyyəsi, ümumi yüksəliş ab-havası diktə edir ki, əvvəlki dövlət proqramları kimi, növbəti illər üçün nəzərdə tutulmuş sosial-iqtisadi inkişaf proqramı da uğurla həyata keçiriləcəkdir. Yetər ki, məqsədin aydın, niyyətin xoş olsun. Bu aydın məqsəd, xoş niyyət isə şərurluların canında, qanındadır.***

**Elman MƏMMƏDOV**

*İstehsal müəssisələri*

# "Dekor Qrup" Məhdud Məsuliyyətli Cəmiyyətində yeni istehsal sahələri yaradılır

***Muxtar respublikada iqtisadiyyatın dinamik inkişafı təmin olunub, sahibkarlıq subyektlərinin fəaliyyətinin stimullaşdırılması və genişləndirilməsinə dövlət maliyyə dəstəyi göstərilib, iş adamlarının normal fəaliyyəti üçün əlverişli biznes mühiti formalaşdırılıb, yeni istehsal və xidmət sahələri, idxalı əvəzləyici və ixracyönümlü məhsullar istehsal edən emal və sənaye müəssisələri yaradılıb. Aparılan uğurlu islahatlar nəticəsində sənaye məhsulunun həcmi ilbəil artıb, muxtar respublikada istehsal olunan sənaye məhsulunun 93 faizi özəl sektorun payına düşüb.***





Son illər Naxçıvanda yaradılan istehsal müəssisələrindən biri də "Dekor Qrup" Məhdud Məsuliyyətli Cəmiyyətidir. Müəssisənin direktoru Ələddin Allahverdiyev bildirdi ki, özəl bölməyə, sahibkarlıq fəaliyyətinə göstərilən dövlət qayğısından bu müəssisə də bəhrələnib. Xammal və hazır məhsulların ağırtonnajlı yük avtomobilləri ilə daşınması üçün daha əlverişli yerdə – Naxçıvan dairəvi avtomobil yolunun kənarında müəssisə üçün ayrılmış 15 min kvadratmetr ərazidə 3 istehsal sahəsi, ayrı-ayrı iş otaqları, sərgi-satış salonu olan inzibati bina, iaşə xidməti göstərilməsi üçün yeməkxana istifadəyə verilib.

Texnoloji proseslərə və texniki təhlükəsizlik qaydalarına ciddi əməl olunan müəssisədə istehsal prosesi konveyer üsulu ilə təşkil olunub, keyfiyyətli məhsul istehsalı üçün əlverişli şərait yaradılıb. Həmçinin müəssisədə çalışan işçilərin sağlamlığının qorunması da diqqət mərkəzində saxlanılıb, havalandırma sistemi qurulub ki, bu da istehsal prosesi zamanı yaranan tozun və tullantıların kompressorlar vasitəsilə sexdən kənarlaşdırılmasına və xüsusi bunkerlərə yığılmasına imkan verir.

Layihəyə uyğun olaraq, laminat-mətbəx dəzgahı, PVC akrilik parlaq panellər və melamin örtüklü plitələr istehsal olunması nəzərdə tutulan müəssisədə artıq laminat-mətbəx dəzgahı və PVC akrilik parlaq panellər istehsalı sahələrində İtaliyanın "Omma" və "Osoma", Almaniyanın "İdm", Türkiyənin "AS Metal" və "Türk makina" şirkətlərinin istehsalı olan və kompüterlə idarəetmə mərkəzi ilə təmin edilən müasir texnoloji avadanlıqlar quraşdırılıb, istehsal prosesi avtomatlaşdırılıb.

Hər birinin aylıq istehsal gücü 10 min ədəd mebel materialları olan yeni istehsal sahələrində xammal ayrı-ayrı mərhələlərdən keçməklə rəng olaraq 100 çeşiddən çox məhsul istehsal edilir. Əvvəllər ölkəmizdə, o cümlədən muxtar respublikamızda fəaliyyət göstərən mebel istehsalı müəssisələrinə hazır materiallar xarici ölkələrdən idxal olunub əlavə daşınma xərci çəkilirdisə, bu müəssisənin fəaliyyətə başlaması ilə həmin problemlər aradan qaldırılıb, istehsal müəssisələri vaxtında və keyfiyyətli mebel materialları ilə təmin olunub.

Mebel istehsalı müəssisələrini yüksəkkeyfiyyətli mebel materialları ilə təmin edən "Dekor Qrup" Məhdud Məsuliyyətli Cəmiyyətinin məhsullarına artan tələbatın ödənilməsi üçün ardıcıl tədbirlər həyata keçirilir. Müəssisədə ağac yonqarları lövhələrinin boyanması sahəsi və anbar binalarının layihəsi hazırlanıb. Layihəyə uyğun olaraq, ağac yonqarları lövhələrinin boyanması sahəsi üçün 1860 kvadratmetr, anbar binasının inşası üçün isə 1645 kvadratmetr torpaq sahəsi ayrılıb, əraziyə kommunikasiya xətləri çəkilib. Müasir tələblərə cavab verən anbar binası inşa olunub, ətrafında abadlıq işləri aparılıb, yola asfalt-beton örtük salınıb. İstifadəyə verilən anbar binası xammal və hazır məhsulların müəyyən olunmuş şəraitdə saxlanılmasına və istehsal müəssisələrinə vaxtında göndərilməsinə əlverişli şərait yaradıb. Onu da qeyd edək ki, müəssisənin fasiləsiz fəaliyyət göstərməsində mühüm rol oynayan xammal və hazır məhsulların vaxtında daşınması da diqqət mərkəzində saxlanılıb, "DAF" markalı ağırtonnajlı yük avtomobilləri alınıb. Hazırda ağac yonqarları lövhələrinin boyanması sahəsi üçün binanın inşasına hazırlıq işləri görülür.

Yeni istehsal müəssisəsinin fəaliyyətə başlaması daxili bazarı keyfiyyətli məhsullarla təmin etməklə yanaşı, əhalinin məşğulluğunun təmin olunmasında da mühüm rol oynayıb. Müasir texnoloji avadanlıqlardan səmərəli istifadə etməyi bacaran ixtisaslı mütəxəssislərin hazırlanması da diqqət mərkəzində saxlanılıb, müəssisədə çalışan işçilərin Türkiyə Respublikasında ixtisasartırma kurslarında iştirakı təmin olunub. Bu da imkan verir ki, istehsal prosesi yerli mütəxəssislər tərəfindən həyata keçirilsin.

Gələcəkdə müəssisədə yeni istehsal sahəsinin – melamin örtüklü plitələr istehsalı sahəsinin istifadəyə verilməsi nəzərdə tutulur ki, buraya da mebel avadanlıqları istehsalında qabaqcıl təcrübəyə malik, Almaniyanın dünyada məşhur olan "Wemhoner" şirkətinin avadanlıqları alınıb gətiriləcək və idxal olunan dəzgahlar həmin şirkətin mütəxəssisləri tərəfindən quraşdırılacaqdır. Melamin örtüklü plitələr istehsalı sahəsi istifadəyə veriləndən və müəssisə tam gücü ilə işləyəndən sonra, ümumilikdə, 110 nəfər daimi işlə təmin ediləcək.

Mebel materialları istehsal edilən bu müəssisə muxtar respublikamızda yeganə müəssisədir. Yeni müəssisədə istehsal olunan məhsullar daxili bazarın tələbatını tamamilə ödəməklə yanaşı, ölkəmizin digər regionlarında da satışa çıxarılır. Hazırda istehsal edilən mebel materiallarının xarici ölkələrdə tanıdılması ilə bağlı tədbirlər görülür. Bu sahə üzrə qabaqcıl təcrübəyə malik şirkətlərlə təcrübə mübadilələri aparılır, biznes əlaqələri qurulur ki, bu da Naxçıvan məhsullarının xarici bazarlara ixrac olunmasına imkan verəcək. Ayrı-ayrı şirkətlərlə bağlanmış müqaviləyə uyğun olaraq, "Dekor Qrup" Məhdud Məsuliyyətli Cəmiyyətində istehsal edilən mebel materialları yaxın vaxtlarda xarici bazara çıxarılacaq.

**Kərəm HƏSƏNOV**

# İnsanların sağlamlığının qorunması üçün Naxçıvanda müasir səhiyyə infrastrukturu və kadr potensialı yaradılıb

***Əcəmi yurdu Naxçıvan zaman-zaman həm də təbiblər yurdu kimi tanınıb. Arxeoloji qazıntılar zamanı tapılan, bu gün muzeylərin ekspozisiyasını bəzəyən eksponatlar, şifahi xalq ədəbiyyatı qaynaqları əcdadlarımızın hələ bizim eradan əvvəl humoral və ya pnevmatik təbabətin nəzəri əsaslarına bələd olduqlarını sübut edir. Məsələn, şəkər xəstəliyinin əlamətləri Eneolit dövrünün daş yazılarında belə ifadə olunurdu: "O qədər susuzdu ki, bütün Nil çayını içə bilərdi". Kültəpə ərazisindən Neolit dövrünə aid bir çox tapıntıların, eramızdan əvvəlki 4-3-cü minilliklərə aid bürünc alətlərin, insan skeleti qalıqlarının aşkarlanması tədqiqatçılara bu yerlərdə hələ min illər əvvəl kəllə trepansiyası əməliyyatı aparmaları haqda nəticə çıxarmağa imkan verir.***


Naxçıvan Muxtar Respublika Xəstəxanası

Omürlərini vətən, xalq qarşısında böyük xidmətlərə sərf edən, nurlu əməlləri, müqəddəs amalları, xeyirxahlıqları ilə insanların qəlbində yurd salan həkimlərimiz şərəfli işi, nəsillərə örnək olan əməlləri ilə gənc nəslə nümunədir. Həkimin gördüyü iş çətin, məsuliyyətli, eyni zamanda şərəfli işdir. Ümummilli lider Heydər Əliyev həkimlik peşəsini yüksək qiymətləndirərək deyirdi: ***"Həkimlik sənəti dövri-qədimdən şərəfli və hörmətli sənət olmuşdur. Həkimlik sənəti indi də ən şərəfli, ən hörmətli sənətlərdən biridir. Mən hesab edirəm ki, dünyada heç bir sənət tapa bilməzsən ki, həkimlik kimi hər bir insana lazım olsun. Yer kürəsində insanların hərəsi öz fəaliyyətini bir sahədə göstərir. Hər bir sahə lazımdır. Amma özünü həkim sənətinə, insanların sağlamlığına, səhhətinə həsr edənlər ən qiymətli insanlardır".***

Bu gün əhalinin sağlamlığının qorunması, tibbi xidmətin keyfiyyətinin daha da yaxşılaşdırılması həyata keçirilən sosial-iqtisadi siyasətin başlıca istiqamətlərindən olaraq daim dövlətin diqqət mərkəzindədir. Son illər muxtar respublikada səhiyyə sahəsində aparılan islahatlar nəticəsində əhalinin sağlamlığının qorunması istiqamətində bir sıra mühüm işlər görülüb, tibb müəssisələrinin maddi-texniki bazası əhəmiyyətli dərəcədə yaxşılaşdırılıb, yeni-yeni səhiyyə ocaqları tikilərək istifadəyə verilib.

Sovet dövrünün səhiyyəsi tariximizdə mühüm yer tutsa da, acı reallıqları da vardı. Bakıda fəaliyyət göstərən ictimai təşkilatların nümayəndə heyəti ilə birlikdə ötən əsrin 60-cı illərində Naxçıvanın rayonlarında və kəndlərində reydlərdə olmuş həkim Tarverdi Cəfərov təəssüratlarını ifadə edərək yazırdı ki, o dövrdə əhaliyə göstərilən tibbi xidmətin vəziyyətini öyrənmək üçün muxtar respublikanın ucqar rayonlarından biri olan Şahbuza xoş əhval-ruhiyyə ilə getmişdik. Bir rayon sakini ilə söhbətimiz zamanı məqsədimizi bildirəndən sonra yarızarafat, yarıgerçək deyilənləri eşidəndə bir qədər təəccübləndim. Çünki həmsöhbətim ironiya qarışıq bir tərzdə bildirdi ki, burada xəstələri arxasınca gəldiyiniz səhiyyə xidməti, həkimlər, tibb işçiləri yox, təbiətimizin özü müalicə edir. Ona görə də olmayan bir xidmətin səviyyəsini yoxlamaq üçün özünüzü çox da əziyyətə salmayın. Digər rayonlarda da mənzərə eyni idi. Natəmizliyin, antisanitariyanın həddi-hüdudu yox idi. Xəstəxanalarda, doğum evlərində, təcili tibbi yardım stansiyalarında ən acınacaqlı vəziyyətin adi hal olduğunu bildirən xəstələr bir çox məqamları da dilə gətirdilər. Çarpayıdan tutmuş bir qab qaynanmış suya qədər hər şeyin "hörmətə" bağlı olduğunu da elə xəstələrin fikirlərindən anladıq.

Qocaman həkimin təəssüratlarından sonra muxtar respublikamızda bugünkü səhiyyənin inkişafını nəzərimdə canlandırıb düşünürəm. Həkimliyin aliliyinə, müqəddəsliyinə nə qədər xoş söz deyilsə də, yenə azdır. Hippokrat "Aforizmlər" əsərində yazıb: "...Həyat qısadır, həkimlik sənətininsə yolu uzundur. İnsana bu yolu qət etməyə ömür kifayət etmir. Buna görə təbabət elminə nəsillərin sənəti deyilir". Hər bir sənət adamının dilinin lüğət tərkibi vardır. Əgər ədəbiyyatşünaslar, dilçilər, qəzet və jurnal əməkdaşları bir sözün yerini səhv salsalar, sonradan bu səhvi düzəldə bilərlər. Həkimlərin səhvi isə insanın həyatı hesabına başa gəlir. Ona görə də ağ xalat geyinən hər bir həkim xəstəsinin gözlərində ümid çırağı yandırmağı bacarmalıdır. Əgər həmin həkimə yaxşı işləmək üçün dövlət tərəfindən hər bir şərait yaradılırsa, onun əməyi qiymətləndirilirsə, elmi-texniki yeniliklərin hərtərəfli istifadəsinə sahibdirsə, onda hansısa bir həkimin laqeyd olmağa, vəzifə borcunu başdansovdu icra etməyə mənəvi haqqı yoxdur. Bu gün muxtar respublikamızda səhiyyənin ən yüksək səviyyədə inkişafı üçün göstərilən dövlət qayğısı müqabilində həkimlər müqəddəs borclarını unutmamalıdırlar (bəzən belə həkimlərlə rastlaşdığımıza görə mən bu fikirləri yada salıram). Ötən 21 ildə bu sahədə görülən işlər, yaradılan yeniliklər barədə yazmaq lazım gələrsə, bu, bir neçə kitab səhifəsinə belə, sığmaz.


Naxçıvan Diaqnostika-Müalicə Mərkəzi

Azərbaycanda, o cümlədən Naxçıvanda səhiyyənin inkişafı ilə bağlı həyata keçirilən davamlı və kompleks islahatlar ölkəmizdə ümumi halda bütün nailiyyətlərin, uğurların qazanılmasının əsas səbəbi olan insan sağlamlığının qorunmasına və beləcə, dövlətimizin xoşbəxt gələcəyinə, millətimizin maddi və mənəvi baxımdan inkişafına xidmət edir. Nahaq deyilməyib ki, xəstə insanın bir, sağlam insanın isə min bir arzusu olar. Kaş ki hər kəs ömrü boyu min bir arzu ilə yaşayıb dövlətinə, millətinə və övladlarının xoşbəxt gələcəyinə öz payını verə bilsin.

1995-2016-cı illər Naxçıvan səhiyyəsində intensiv inkişaf dövrü ilə xarakterizə olunur.

Son illərin ən möhtəşəm quruculuq ünvanlarından olan Naxçıvan Muxtar Respublika Xəstəxanası, Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanası, Naxçıvan Diaqnostika-Müalicə, Naxçıvan Muxtar Respublikası Doğum, Duzdağ Fizioterapiya, Onkoloji, Yoluxucu Xəstəliklər, Gigiyena və Epidemiologiya, Naxçıvan Şəhər Təcili Tibb, Uşaq Bərpa mərkəzləri, Ağciyər, Psixi Xəstəliklər dispanserləri, Darıdağ Arsenli Su Müalicəxanası, rayon mərkəzi xəstəxanaları bu gün bölgədə analoqu olmayan səhiyyə müəssisələrindəndir. Bütövlükdə, son 21 ildə muxtar respublikada 250- dən çox səhiyyə obyektinin tikilərək, yaxud yenidən qurularaq istifadəyə verilməsi ölkəmizin iqtisadi potensialının sosial siyasətin icrasına, əhalinin sağlamlığına yönəldiyinin parlaq göstəricisidir. Bu müəssisələrin istifadəyə verilməsi ilə Naxçıvanda səhiyyə infrastrukturunun yaradılması prosesi başa çatıb.


Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikası

Muxtar respublikanın dövlət səhiyyə müəssisələrində bütün növ pullu xidmətlər ləğv edilib. Son illər tibb ocaqlarında lazımi şəraitin yaradılması, müasir avadanlıqlar, müayinə və müalicə aparatları ilə təchizat hər bir vətəndaşa öz sağlamlığını qorumağa imkan yaradır. Səhiyyə müəssisələrindəki kompüter tomoqraf, nüvə maqnit rezonans, mamoqrafiya, qastroskopiya, kolonoskopiya aparatları müayinə və müalicənin düzgün və səmərəli təşkilinə mühüm fayda verir. Bütün ölkə vətəndaşlarının kütləvi tibbi müayinədən keçirilməsi tədbirləri muxtar respublikada da uğurla icra olunur. Rayon mərkəzi xəstəxanalarında Təcili tibbi yardım, Reanimasiya, Cərrahiyyə, Laboratoriya, Hemodializ və Poliklinika şöbələri fəaliyyət göstərir. Xəstəxanalarda tibb elminin ən son nailiyyətlərinə əsaslanan tibbi avadanlıq və cihazlar, süni nəfəs aparatları quraşdırılıb. Əhalinin müxtəlif təbəqələri arasında kütləvi profilaktik müayinələrin aparılması diqqət mərkəzində saxlanılır. Çoxprofilli briqadaların təşkili əhalinin hər bir təbəqəsinin, xüsusən ucqar dağlıq və sərhəd kəndlərində yaşayan insanların keyfiyyətli tibbi xidmətlə əhatə olunmasına, onların maddi və mənəvi çətinliklər hesabına şəhər, rayon mərkəzləri və digər uzaq məsafələr qət etmədən yerindəcə kütləvi şəkildə profilaktik tibbi müayinələrdən keçməsinə, vaxtında müalicəyə cəlb olunmasına xidmət edir.


Babək Rayon Mərkəzi Xəstəxanası

Bakı şəhərində fəaliyyət göstərən müxtəlif klinikalardan yüksəkixtisaslı həkimlər və kollektivlər muxtar respublikaya dəvət olunur və Naxçıvan həkimləri ilə birgə əməliyyatlar aparırlar. Bu il may ayının 26-da Naxçıvan səhiyyəsində daha bir uğura imza atılıb, Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin kardiocərrahları tərəfindən ilk dəfə olaraq müstəqil şəkildə açıq ürək əməliyyatlarına start verilib. Artıq ən mürəkkəb cərrahi, o cümlədən açıq ürək əməliyyatlarının da Naxçıvanda həyata keçirilməsi əhalinin müayinə və müalicə üçün başqa yerlərə üz tutmasının qarşısının alınmasında mühüm rol oynayır.

Naxçıvanda səhiyyə turizmi də diqqətdə saxlanılan məsələlərdəndir. Təbii üsulla müalicə məqsədilə yaradılmış Duzdağ Fizioterapiya Mərkəzi və Darıdağ Arsenli Su Müalicəxanası yenidən qurularaq istifadəyə verilib. Son illər hər iki səhiyyə müəssisəsində aparılan quruculuq işləri, yaradılan şərait müalicəyə gələn yerli əhali ilə yanaşı, xarici turistlərin də sayının artmasına stimul olub.

Ümumdünya Səhiyyə Təşkilatının müntəzəm monitorinqdə saxladığı əsas yoluxucu xəstəliklərə, o cümlədən salmonellyoz, bakterial dezinteriya, difteriya, epidemik parotit pedikulyoz, malyariya, leyşmanioz, poliomielit və tetanus kimi xəstəliklərə muxtar respublika ərazisində son onillikdə təsadüf olunmayıb. Digər yoluxucu xəstəliklər isə əvvəlki illərlə müqayisədə xeyli azalıb. Bu isə, ilk növbədə, keyfiyyətli səhiyyə xidmətlərindən öncə keyfiyyətli həyat tərzinin təmin olunmasının nəticələridir.


Şahbuz Rayon Mərkəzi Xəstəxanası

Bu gün 207-si rayonlarda olmaqla muxtar respublikada əhaliyə 229 tibb müəssisəsi tərəfindən tibbi xidmət göstərilir. Həmin tibb müəssisələrində 686 həkim, 2 min 72 orta tibb işçisi çalışır ki, bu, muxtar respublika üzrə hər 10000 nəfərin 15 həkim, 46 orta tibb işçisi ilə təmin olunması deməkdir. Muxtar respublikada 5 özəl tibb müəssisəsi fəaliyyət göstərir. Bu tibb müəssisələrinə həm ambulator, həm də stasionar gəlişlərin sayı ilbəil artır.

Tibb işçilərinin ixtisas səviyyəsinin artırılması muxtar respublikamızda da diqqət mərkəzində saxlanılan məsələlərdəndir. Bu məqsədlə həkim və rezidentlər Bakı şəhərinin, Türkiyə Respublikasının, eləcə də müxtəlif ölkələrin tanınmış xəstəxana, klinika və universitetlərində, orta tibb işçiləri isə Naxçıvan Tibb Kollecində təkmilləşmə kursu keçmələri üçün göndərilirlər. Həkim və orta tibb işçilərinin peşə bacarıqlarının artırılmasında beynəlxalq, respublika və yerli əhəmiyyətli simpozium, konfranslar, elmi-praktik seminarlar, məşğələ və treninqlər də mühüm rol oynadığından belə tədbirlər mütəmadi olaraq keçirilir.

Səhiyyə sahəsində kadr təminatı ən vacib məsələ kimi diqqət mərkəzində saxlanılır. Naxçıvan Dövlət Universitetinin ölkəmizin heç bir ali təhsil müəssisəsində analoqu olmayan Tibb fakültəsində və Naxçıvan Tibb Kollecində ixtisaslı həkim və orta tibb işçilərinin hazırlanması muxtar respublikanın səhiyyə ocaqlarının kadr təminatının ödənilməsinə imkan verir.

Hazırda Səhiyyə Nazirliyinin rəsmi internet saytı vasitəsilə müxtəlif elektron xidmətlər üzrə fəaliyyət təmin olunaraq "Elektron hökumət" portalına qoşulub. İnternet səhifəsi yenilənib, nazirliyin ***info.sehiyye@nakhchivan.az*** ünvanına göndərilmiş sorğuların və onlara verilən cavabların müraciət edənlər tərəfindən onlayn izlənilməsi təmin olunub.

Ahıl və əlillərə göstərilən tibbi xidməti yaxşılaşdırmaq məqsədilə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi tərəfindən onların Bakı şəhərinin Şağan qəsəbəsində fəaliyyət göstərən Əlillərin Müalicə Pansionatına, Mərdəkan qəsəbəsində yerləşən Müharibə və Əmək Veteranları Pansionatına, eləcə də digər xəstəxanalara müalicəyə göndərilməsi daim diqqət mərkəzində saxlanılır.

…Onlar çox çətin, məsuliyyətli, lakin çox vacib və gərəkli bir peşə seçiblər. İnsanlar öz ağrı və iztirabları ilə həkimlərin yanına gəlir, ən dəyərli nemət olan sağlamlıqlarını və həyatlarını onlara etibar edirlər. Həkimlik adi peşə deyil, o, insandan həm də xüsusi düşüncə tərzi və incə ruh tələb edir. Nə yeni texnologiyalar və müasir müalicə metodları, nə bilik, təcrübə və hətta Hippokrat andına sadiqlik həkimin səbrini, həssaslığını, mərhəmətini və qayğısını əvəz edə bilməz. Xəstə insanın həmişə başa düşülməyə və canıyanarlığa, xoş sözə və qəlbin hərarətinə ehtiyacı var.

Hər insan ömründə elə məqamla rastlaşır ki, həyatla ölüm arasında nazik tel qayğıkeş həkimin əllərində olur. Belə məqamda həkim insana ümid bəxş edir, dayanmış ürəyin döyünməyinə, insanın sağlamlığına və xoşbəxt həyata qayıtmağına vəsilə olur.

Həkim bütün ömrü boyu öyrənir. Onun hər günü yeni sınaq, kiminsə həyatı uğrunda mübarizədir. Tibb işçilərinin gündəlik əməyi, dözümü və fədakarlığı sayəsində bu gün milyonlarla insan yaşadığına sevinir, övladlarını böyüdür, gələcəyə planlar qurur. Hər xilas etdiyi insan həkimə yer üzündə ən humanist, nəcib, lazımlı bir peşəyə aid olduğu üçün qürur hissi bəxş edir.

*Onların qəlbində insanlara daim sevgi hissi yaşayır. Öz həyatını təbabətə həsr etmiş hər kəs ehtiram və minnətdarlığa layiqdir. Onlar bütün qüvvələrini, bilik və bacarıqlarını bundan sonra da xalqımızın sağlamlığının möhkəmləndirilməsinə, səhiyyənin inkişafına yönəltmək əzmindədirlər.*

**Hüseyn ƏSGƏROV**

Gəncliyimiz, gələcəyimiz

# Naxçıvan Qızlar Liseyinin uğurları

***"Təhsil millətin gələcəyidir". Bu, sübuta ehtiyacı olmayan həqiqətdir. Bir xalqın gələcəyini onun bugünkü gəncliyi müəyyənləşdirir. Təbii ki, təhsilli gənclik istəyiriksə, ilk olaraq bu sahənin inkişafı diqqət mərkəzində saxlanılmalıdır. Və qürur hissi duyuruq ki, bu gün muxtar respublikada bu sahəyə qayğı çox yüksək səviyyədədir. Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən orta təhsil müəssisələrinin hamısında şagirdlərin hazırlanıb tələbə adı qazanmaları üçün böyük səy göstərilir ki, bunlardan biri də Naxçıvan Qızlar Liseyidir. Burada peşəkar kollektiv fəaliyyət göstərir. Onların zəhməti bu il də əvəzsiz qalmayıb. Liseyin məzunları yüksək ballarla ali məktəblərə qəbul olunublar. Onların bir neçəsi ilə həmsöhbət olduq:***

*Qızxanım CƏFƏROVA:* – Naxçıvan Qızlar Liseyinin pedaqoji kollektivi



burada təhsil alan şagirdlərin hamısının yüksək bal toplayaraq ali məktəblərə qəbul olunmaları üçün yaradılmış imkanlardan səmərəli istifadə edir. Bundan başqa, burada qızlar həm də bir xanım kimi yetişdirilir, təhsillə yanaşı, əl işləri və sair kimi əlavə məşğələlərlə onlar gələcək həyata tam hazır şəkildə məzun olurlar. Onu deməyi vacib sayıram ki, Naxçıvan Qızlar Liseyində oxuyub uğur qazanmamaq qeyri-mümkündür. Mən sınaq imtahanlarında yaxşı nəticələr əldə edirdim. Nəhayət, həyəcanla gözlədiyim ali məktəblərə qəbul imtahanında 624 bal toplayaraq Naxçıvan Dövlət Universitetinin İngilis dili müəllimliyi ixtisasına qəbul olundum. Bundan sonra da üzərimdə əməyi olan insanların zəhmətinin qarşılığını vermək üçün səy göstərəcəyəm.

*Yasəmən BAYRAMOVA:* – Naxçıvan Qızlar Liseyində 2005-ci ildən



təhsil almışam. Bu məktəbin mənim taleyimdə böyük rolu olub. Buraya gəldiyim ilk gündən özümə söz vermişdim ki, dərslərin yüksək səviyyədə keçirildiyi belə bir təhsil ocağında yaxşı oxuyacaq, müəllimlərimin etimadını doğruldacağam. Sınaq imtahanlarında nəticələrim ürəkaçan idi, lakin mən çalışırdım ki, hər dəfə topladığım balı daha da yüksəldim. Ali məktəblərə qəbul imtahanında 628 bal toplayaraq Azərbaycan Tibb Universitetinin Müalicə işi ixtisasına qəbul olundum. Artıq tələbəyəm. Atdığım addımların möhkəm olması üçün var gücümlə çalışacaq, uğurlarımla üzərimdə əziyyəti olan müəllimlərimin zəhmətinin haqqını verəcəyəm. Fikrimcə, bir müəllim üçün şagirdinin uğurundan böyük sevinc ola bilməz.

*Tünzalə ƏLİYEVA:* – 2005-ci ildə Naxçıvan Qızlar Liseyinə qəbul olunmuşam. Uşaqlıqdan ən böyük arzum həkim olmaq idi və arzuma çatmaq üçün elə təhsilin ilk pillələrindən çox çalışmağa başladım.



Təhsil aldığım Naxçıvan Qızlar Liseyində arzuma çatmaq üçün hər cür şərait vardı. Burada keçdiyimiz bütün fənləri yaxşı oxusam da, ixtisas qrupu seçimindən sonra seçdiyim qrupa daxil olan fənlərə daha həssaslıqla yanaşır, onların öyrənilməsinə daha çox vaxt sərf edirdim. Ali məktəblərə qəbul imtahanında 620 bal toplayaraq Azərbaycan Tibb Universitetinin Müalicə işi ixtisasının tələbəsi adını qazandım.

Bu gün yaşadığımız Naxçıvan Muxtar Respublikasında təhsilə göstərilən diqqət və qayğı göz qabağındadır. Ən ucqar kəndlərində belə, yeni-yeni təhsil ocaqlarının tikilib istifadəyə verilməsi, mövcud məktəb binalarının yenidən qurularaq müasir standartlara cavab verə biləcək səviyyəyə çatdırılması bu sahədə görülən işlərin, sadəcə, bir qismidir. Bundan başqa, uşaqlarda təhsilə güclü maraq yaradılması üçün bir sıra layihələrin hazırlanması və həyata keçirilməsi, təhsildə fərqlənən gənclərin mükafatlandırılması belə deməyə əsas verir ki, muxtar respublikanın gəncliyi hərtərəfli qayğı ilə əhatələnib. Buna görədir ki, gənclərin bu sahədə uğurlarının sayı ildən-ilə artmaqdadır.

✍ **Fatma BABAYEVA**

***Naxçıvan Dövlət Universiteti və Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə universitetin bir qrup tələbəsinin Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkına növbəti səyahəti təşkil olunub.***

# Tələbələr Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkı ilə tanış oldular

Universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov belə tədbirlərin doğma yurdun fauna və florası ilə yaxından tanış olmaq, onu qorumaq və bu sahədəki bilikləri artırmaq baxımından zəruri olduğunu vurğulayıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşı Şövqi Əliyev tələbələrə Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkı haqqında geniş məlumat verib.

Bildirilib ki, Azərbaycan Respublikası Prezidentinin 2003-cü il iyunun 16-da imzaladığı Sərəncamla Ordubad rayonunun inzibati ərazisinin 12 min 131 hektar sahəsində Ordubad Milli Parkı yaradılıb. Dövlət başçısının 2009-cu il 25 noyabr tarixli Sərəncamı ilə Ordubad Milli Parkının ərazisi Şahbuz, Culfa və Ordubad rayonlarının torpaqları hesabına genişləndiriləcək sahəsi 42 min 797,4 hektara çatdırılıb. Həmin sərəncamla milli parkın adı dəyişdirilərək Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkı adlandırılıb. Milli parkla yanaşı, xüsusi mühafizə olunan təbiət ərazisinin 27 min 870 hektarında Ordubad Dövlət Təbiət Yasaqlığı yerləşir. Bu parkın ərazisinin çox hissəsi dağlıqdır. Yayı quraq keçən iqlimi var. Ərazinin torpaq örtüyü müxtəlifdir. Ərazidə, əsasən, boz, çəmən-boz, allüvial-çəmən, dağ-meşə, çimli, dağ-çəmən torpaqlar yayılıb.

Qeyd olunub ki, 1990-cı illərdə quru torpaq sahələri olan ərazilər hazırda yaşıllıqlarla örtülüdür. Bu da muxtar respublikada bütün sahələrlə yanaşı, ekologiyanın da inkişafının göstəricisidir.

Sonra parkın Culfa rayonunun Boyəhməd kəndi ərazisindəki infrastruktur obyektləri və buradakı muzeylə tanışlıq olub. Tələbələrə buradakı bitki və heyvan növləri, eləcə də bölgənin "Qırmızı Kitab"a daxil edilən zəngin flora və fauna nümunələri, dərman bitkilərindən hazırlanan ekstraktlar, faydalı qazıntılar və o cümlədən nəsli kəsilməkdə olan heyvanlar haqqında məlumat verilib, onları maraqlandıran suallar cavablandırılıb.

**Nərmin CABBAROVA**

# Taleyini Naxçıvana bağlayan rejissor

***Teatr bədii həyatın inikası olmaqla bərabər, həm də sintez sənətidir. Tamaşaçını öz sehrinə salan, onu hadisələrin birbaşa canlı şahidinə çevirən teatrdakı tamaşaların arxasında, sözsüz ki, müəllif, aktyor oyunu ilə birlikdə rejissor işi də dayanır. Çox vaxt yaxşı aktyor oyunu rejissorun kimliyini tamaşaçılara unutdursa da, sənət adamları və sənətşevərlər tamaşaların yaranmasında bu peşə sahiblərinin əməyinin necə əhəmiyyətli olduğunu yaxşı bilirlər.***



Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı öz sənət tarixində bir çox tanınmış rejissorlar yetirib. Onların bəziləri elə teatrın öz içərisindən çıxan aktyorlar olsa da, bəziləri peşəkar rejissor kimi bu sənət ocağı ilə öz talelərini bağlayıblar. Belə rejissorlardan biri də keçmiş SSRİ-də yaxşı tanınan Baxşı Qələndərli idi. 1964-cü ildən Naxçıvan teatrında çalışan Baxşı Qələndərli 1903-cü ildə Xankəndidə doğulmuşdu. 1926-30-cu illərdə Bakı Teatr Texnikumunda və 1930-34-cü illərdə Leninqrad (indiki Sankt-Peterburq) Səhnə Sənəti İnstitutunda təhsil almışdı.1934-51-ci illərdə Cəfər Cabbarlı adına İrəvan Azərbaycan Dram Teatrında baş rejissor işləyən Baxşı Qələndərli burda bir-birindən maraqlı tamaşalar səhnələşdirmişdi. 1944-cü ildə İrəvanda dahi ingilis dramaturqu Şekspirin 380 illiyinə həsr edilən VI Ümumittifaq elmi-tədqiqat konfransı və Şekspir tamaşalarının festivalında onun hazırladığı "Otello" tamaşası birinci yerə layiq görülür. Münsiflər heyətinin üzvü, professor Mixail Morozov fəcienin azərbaycanca mətninin üzərində bu ifadəni yazıb: "Mən Şekspir festivalında əsl ləzzəti azərbaycanlıların "Otello" tamaşasından aldım". Naxçıvan teatrının keçmiş aktyoru, Azərbaycan Respublikasının Əməkdar artisti Yusif Allahverdiyev Baxşı Qələndərlinin bu barədə söhbətini belə xatırlayır: "Baxşı müəllim deyirdi ki, Morozov hamıya bildirmişdi ki, o, Otellonun Dezdemonanı boğması səhnəsinə baxa bilmir. Hətta bunu Şekspir tərəfindən istifadə olunan vəhşilik kimi dəyərləndirirdi. Çünki tamaşaçının gözü qarşısında insanı boğmaq və öldürmək düzgün deyil. Amma Baxşı müəllim çox orijinal bir üsul tapmışdı. O, sonuncu səhnədə, ölüm yerində baş tərəfi taxta ilə qapalı və bu hissəsi tamaşaçıya sarı olan bir çarpayı qoymuşdu. Yəni tamaşaçı yatağında uzanan Dezdemonanı görmürdü. Otello onun yatağına yaxınlaşır və Dezdemonanı boğurdu. Otello ayağa qalxandan sonra isə çarpayıdan heysiz bir qadın əli yana düşürdü. Bu mizan ilk dəfə olaraq belə işləndiyi üçün dəhşətli ölüm səhnəsi birbaşa tamaşaçının gözü qarşısında baş vermirdi. Ona görə də bütün münsiflər heyəti tamaşanı ayaq üstə alqışladılar".

Sonradan İrəvan Azərbaycan Teatrı erməni teatrlarını üstələdiyi üçün bağlanır. Sənət fədaisi olan Baxşı Qələndərli 1964-cü ildə Naxçıvan Dövlət Musiqili Dram Teatrına gəlir. Burda isə bir-birindən maraqlı tamaşalara quruluş verir. "Müsyö Jordan və Dərviş Məstəli şah" (M.F.Axundzadə), "Od gəlini" (C.Cabbarlı), "Otello" (V.Şekspir), "Mehmanxana sahibəsi" (K.Qoldoni), "Cehizsiz qız" (A.Ostrovski), "Dördüncü" (K.Simonov), "Məhsəti" (Kəmalə), "Səadət nəğməsi" (Ə.Yusifli), "Koroğlunun səhvi" (İ.Şıxlı), "Qəmli günlər" (N.Əliyev) və sair tamaşalar onun yaradıcı təxəyyülünün səhnə məhsuluna çevrilir. Hətta o zaman teatrda səhnələşdirilən bir sıra operalara da quruluş verir. Onun şair-dramaturq Kəmalənin yazdığı "Məhsəti" pyesinin əsasında hazırladığı eyniadlı tamaşa ilk dəfə olaraq Xurşidbanu Natəvana həsr edilən səhnə əsəri idi. Teatrşünas Cəfər Cəfərov bu tamaşa haqda resenziyasında yazırdı: "Təcrübəli rejissor olan Baxşı Qələndərli tarixi hadisələri təsvir etmək üçün xırda detallardan, bərli-bəzəkli geyimlərdən və parlaq aşyalardan imtina edib. Tamaşa yığcam, cəlbedici rejissor dəst-xəttinin sadəliyi ilə diqqəti çəkir. Burda tərki-dünyalıq və nikbinlik kimi iki dünyagörüşün, fəlsəfi baxışın arasında gedən mübarizə xərabat və məscidlə aydın şəkildə təzahür edir".

Təbii ki, bütün bunlar peşəkar rejissorun rəssam, bəstəkar və aktyorla qarşılıqlı işinin nəticəsi idi. "Baxşı Qələndərli daha çox həmin vaxt teatrın baş rəssamı olan Məmməd Qasımovla işləməyi xoşlayırdı. Onlar arasında yaş fərqi 20 il olsa da, sözləri yaxşı tuturdu. Hər ikisi istedadlı teatr adamı idilər", – Yusif Allahverdiyev belə xatırlayır. Aktyorla işləmək bacarığı az bir zamanda Baxşı müəllimi bütün truppanın sevimlisinə çevirmişdi. O, məşqlərdə heç vaxt iradlarını ucadan deməzdi. Sadəcə, aktyora yaxınlaşır və pıçıltı ilə öz təklifini verirdi. Bunu onlardan başqa heç kim eşitmir və nəticədə, aktyor öz səhvlərini səmimi şəkildə qəbul edirdi.

Baxşı Qələndərlinin Naxçıvan teatrında rejissor kimi işlədiyi vaxtda bütöv bir aktyor nəsli yetişib. Etiraf edək ki, sonradan ölkə səviyyəsində tanınan, müxtəlif yüksək fəxri adlara layiq görülən bu aktyor və aktrisaların fəaliyyətində Baxşı Qələndərlinin danılmaz zəhməti var. Onun Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında çəkdiyi zəhmət hədər getməyib. O, 2 dəfə "Şərəf nişanı" ordeni ilə təltif edilib.

Tale ömrünün 60 ildən artıq bir dövrünü teatra həsr edən rejissora heç də xoş sürpriz hazırlamamışdı. 1903-cü ildə Xankəndidə doğulan, İrəvanda və sonra 21 il Naxçıvanda yaşayan Baxşı Qələndərli 1985-ci ildə Naxçıvanda vəfat edib.

**Səməd CANBAXŞIYEV**


## Elan

Naxçıvan Muxtar Respublikasının təhsil sahəsində aparılan uğurlu islahatlar ilk peşə-ixtisas sahəsində də innovativ dəyişikliklər meydana gətirmişdir. Belə ki, irrasional mexanizmin məhdud strukturunu sadə, lakin çoxşaxəli formata inikası ilə bağlı struktur dəyişikliyi Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 25 avqust 2016-cı il tarixli 83 nömrəli qərarı ilə təsdiq edilmişdir. Yeni formatda fəaliyyətə başlayan Naxçıvan Şəhər Peşə Liseyi aşağıda adları qeyd olunan ixtisaslar üzrə qəbul elan edir:

1. Xalçaçı
2. Bərbər
3. Bərbər-manikürçü
4. Fotoqraf
5. Kompüter istifadəçisi
6. Parket ustası
7. Suvaqçı
8. Üzlükçü-mozaikaçı
9. İnşaat rəngsazı
10. Divar kağızlarının yapışdırıcısı
11. Bənna
12. Daş məmulatları üzrə mərmərçi
13. Mebel quraşdırıcısı
14. Satıcı-kassir
15. İstilik sistemlərinin montajçısı
16. Dayə
17. Kafel ustası
18. Gözətçi
19. Qaynaqçı
20. Şüşəçi
21. Toxucu
22. Turizm agenti
23. Qaz çilingəri
24. Video çəkilişi üzrə operator
25. Ofisiant
26. Bufetçi
27. Aşpaz
28. Traktorçu-maşinist
29. Arıçı
30. Bağban
31. Qazanxana maşinisti
32. Elektrik avadanlıqlarına xidmət və təmir üzrə elektrik montyoru
33. Kabel lehimləyici və rabitə montyoru
34. Mobil telefonların təmiri ustası
35. Dərzi
36. Ağac üzərində oyma
37. Bədii tikmə ustası
38. Çörək və qənnadı məmulatları ustası
39. Kran maşinisti
40. Elektron lövhə istifadəçisi

**İxtisasartırma kursları**

1. Elektron lövhə istifadəçisi
2. Kompüter istifadəçisi
3. Bufetçi
4. Dayə
5. Gözətçi

***Sənəd qəbulu Naxçıvan şəhəri, Akademik Zərifə Əliyeva küçəsi 9 ünvanında aparılır.***

***Əlavə məlumat üçün əlaqə telefonu (036)545-25-80***

**Qəbul komissiyasına təqdim olunan sənədlər:**

1. *Şəxsiyyət vəsiqəsinin surəti*
2. *Yaşayış yerindən arayış*
3. *Şəhadətnamənin əsli*

***Qeyd: Ümumi orta təhsil bazasını bitirən istənilən vətəndaş Naxçıvan Şəhər Peşə Liseyinə müraciət edə bilər***

## Elan

Vətəndaşların nəzərinə çatdırılır ki, Naxçıvan Texniki-Peşə və Sürücülük Məktəbində yeni texniki-peşə, avtomobil ixtisasları üzrə aşağıdakı adları çəkilən kurslar açılır:

1. *Mühərrikçi-çilingər*
2. *Elektrikçi*
3. *Təmirçi-çilingər*
4. *Dəmirçi-rəngsaz*
5. *Təkərçi-təkər bucaqçısı*
6. *Yuyucu-təmizləyici*

Kursa müraciət edən vətəndaşlardan aşağıdakı sənədlər tələb olunur:

1. *Şəxsiyyət vəsiqəsinin surəti*
2. *Tibbi arayış*
3. *Təhsil haqqında sənədin surəti*
4. *Şəkil 2 ədəd: 3x4sm ölçüdə*

***Ünvan: N.Tusi küçəsi 21.***
***Telefon: (036)545-53-31***
***(051)570-30-81***

### İtmişdir

Bağırov İnşallah Maşallah oğlunun adına olan 20.11.2015-ci il tarixdə verilmiş MH-0045436 seriya nömrəli çıxarış və 10.11.2015-ci il tarixdə verilmiş A-012519 nömrəli torpaq sahəsinin plan ölçüsü itdiyindən etibarsız sayılır.



ŞƏRQ qapısı

Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Kərəm Həsənov

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1050. Sifariş № 652